# Hüquqi savadlılıq səviyyəsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi

## Layihə

***Müasir dövrdə insan hüquq və azadlıqlarının təmin olunması, vətəndaşların dövlətlə münasibətlərində ədalətli və qanuni davranış qaydalarının formalaşması hər bir cəmiyyətin inkişaf səviyyəsini müəyyən edən əsas göstəricilərdən biridir. Hüquqi dövlət anlayışı yalnız qanunların mövcudluğu ilə deyil, həm də həmin qanunların icrasını təmin edən, onları dərk edən və hüquqi mexanizmlərdən səmərəli istifadə edən vətəndaşlarla mümkündür. Lakın təəssuf ki, bir çox hallarda insanların hüquqi savadlılıq səviyyəsinin aşağı olması sosial problemlərin əsas səbəblərindən birinə çevrilir.***



Cəmiyyətin istənilən sahəsində - ailədə, iş yerində, təhsil müəssisəsində, dövlət orqanları ilə münasibətlərdə hüquqi maarifin zəifliyi insanları passiv edir, haqsızlıq qarşısında susmağa məcbur qoyur və qanunsuzluğun artmasına şərait yaradır. Hüquqi savadlılığın aşağı olması, əslində, vətəndaşın öz hüquqlarını bilməməsi, müdafiə edə bilməməsi və nəticədə həm fərdi, həm də ictimai zərərlə üzləşməsi deməkdir.

### Hüquqi savadsızlığın kökləri

**Hüquqi savadlılığın aşağı olmasının bir neçə səbəbi var. Əvvəla, bu, uzun illər ərzində formalaşmış hüquqi təfəkkürün zəifliyindən qaynaqlanır. Keçmiş sovet dövründən miras qalmış "dövlət hər şeyi həll edir" düşüncəsi bir çox vətəndaşda hələ də qalmaqdadır.**

İnsanlar çox vaxt hüquqlarını müdafiə etməyi öz vəzifələri saymır, "dövlət baxacaq", "mənim səsim nəyi dəyişəcək ki?" düşüncəsi ilə hərəkət edirlər. Halbuki, hüquqi dövlətin əsas dayağı vətəndaşın hüquq mədəniyyətidir. İkinci əsas amil təhsillə bağlıdır. Məktəblərdə hüquqi biliklərin tədrisi uzun illər formal xarakter daşıyıb. Şagirdlər çox vaxt hüquq fənnini sadəcə "teorik" bilik kimi qəbul edir, bu biliklərin gündəlik həyatda nə qədər vacib olduğunu dərk etmirlər. Halbuki, hüquq yalnız qanun maddələrini əzbərləmək deyil, insanın öz davranışını və başqalarının hüquqlarına münasibətini düzgün formalaşdırmaq bacarığıdır. Üçüncü səbəb kimi, ictimai maarifləndirmə mexanizmlərinin zəifliyini göstərmək olar. Televiziya, radio və sosial media kanalları çox vaxt əyləncəli xəbərlərlə doludur, lakin hüquqi maarifləndirici proqramlara az yer ayrılır. Hüquqşünaslar və vəkillərin ictimai müzakirələrdə iştirakı, vətəndaşlara gündəlik hüquqi məsləhətlərin çatdırılması hələ də geniş miqyasda həyata keçirilmir.

### Sosial problemlərin kökündə hüquqi savadsızlıq

**Hüquqi savadlılığın aşağı olması yalnız fərdi səviyyədə deyil, ümumilikdə cəmiyyətin inkişafında ciddi problemlərə yol açır. Məsələn, əmək hüquqları ilə bağlı pozuntular geniş yayılmışdır.**

İşçilərin çoxu əmək müqaviləsinin şərtlərini oxumadan imzalayır, öz hüquqlarını bilmədiyi üçün işdən qanunsuz çıxarılma və ya maaşın gecikməsi kimi hallarda susmağa üstünlük verir. Bu isə əmək bazarında ədalətsiz rəqabət və kölgə iqtisadiyyatının dərinləşməsinə səbəb olur. Digər tərəfdən, sosial yardımlar və pensiyalarla bağlı problemlərin bir hissəsi də hüquqi savadsızlıqdan qaynaqlanır. Bir çox vətəndaş sosial təminat və müdafiə hüquqlarını bilmir, müraciət prosedurlarını anlamır və nəticədə dövlətin ayırdığı imkanlardan yararlana bilmir.

Mülki münasibətlərdə, xüsusilə torpaq və daşınmaz əmlakla bağlı mübahisələrdə də eyni vəziyyət müşahidə olunur. İnsanlar çox zaman notarial qaydaların, alqı-satqı müqavilələrinin mahiyyətini anlamadan razılaşmalara gedir, sonradan isə məhkəmələrdə uzun illər ədalət axtarmağa məcbur qalırlar.

Hüquqi savadsızlıq bəzən cəmiyyətdə sosial gərginlik yaradır, çünki hüququnu bilməyən vətəndaş çox vaxt emosional yolla - etiraz, narazılıq, sosial mediada aqressiya ilə reaksiyaya verir. Halbuki, hüquqi düşüncənin formalaşdığı cəmiyyətlərdə problemlərin həlli qanun çərçivəsində, dialoq və hüquqi mexanizmlər vasitəsilə həyata keçirilir.

### Hüquqi savadlılığın yüksəldilməsində dövlət və cəmiyyətin rolu

**Azərbaycan son illərdə hüquqi maarifləndirmə sahəsində mühüm addımlar atıb. Ombudsman Aparatının fəaliyyəti, hüquqi yardım mərkəzlərinin yaradılması, "ASAN xidmət" modelinin tətbiqi və elektron ediliyə sisteminin genişləndirilməsi vətəndaşların hüquqi məlumatlara çıxışını asanlaşdırıb.**

Bununla belə, hüquqi maarifləndirmə işinin yalnız dövlət orqanlarının üzərinə düşməsi doğru deyil. Bu prosesdə qeyri-hökumət təşkilatları, təhsil müəssisələri, media və vəkillər kollegiyası da aktiv rol oynamalıdır. Məktəblərdə hüquq dərslərinin praktik yönümlü formada keçirilməsi, gənclər arasında hüquqi bilik yarışlarının və təlimlərin təşkili maarifləndirici təsirə malik ola bilər. Eyni zamanda, televiziya və sosial şəbəkələrdə hüquqşünasların iştirakı ilə real həyat hadisələri əsasında maarifləndirici verilişlərin hazırlanması vətəndaşların hüquq anlayışına marağını artıra bilər.

Cəmiyyətdə hüquqi savadlılığın yüksəlməsi üçün bir digər mühüm istiqamət vətəndaşların öz məsuliyyət hissinin formalaşdırılmasıdır. Hüquq yalnız "mənim haqqım var" prinsipi üzərində deyil, həm də "mənim borcum var" anlayışı üzərində qurulmalıdır. Qanunlara hörmət etmək, vergi ödəmək, ictimai qaydalara riayət etmək hüquqi mədəniyyətin ayrılmaz hissəsidir.

> *Birinci problem ondadır ki, vətəndaşlar öz hüquqlarını ya bilmirlər, ya da çox az bilirlər*

Hüquqi maarifin inkişafı gənc nəslin təfəkkürünə birbaşa təsir göstərir. Gənclər hüquq sisteminin necə işlədiyini, hansı hallarda və hara müraciət etməli olduqlarını bildikdə, cəmiyyət daha ədalətli və şəffaf olur. Gənclər arasında hüquqi biliklərin artırılması yalnız vətəndaş fəallığını gücləndirmir, eyni zamanda dövlət idarəçiliyinə inamı da artırır. Bu məqsədlə təhsil müəssisələrində "gənc hüquqşünaslar klubu", "hüquq günü" kimi təşəbbüslərin genişləndirilməsi, real məhkəmə proseslərinin simulyasiyası və könüllü hüquqi yardım layihələri gənclərin təcrübə qazanmasına şərait yarada bilər.

### Hüquqlarını bilənlər və hüquqi savadı olmayanlar

■ **Mövzu ilə bağlı hüquqşünas Ruslan Vəliyev bildirib ki, Azərbaycan cəmiyyətində insanları iki qrupa bölmək olar: "Hüquqlarını bilənlər və hüquqi savadı olmayanlar. Birinci problem ondadır ki, vətəndaşlar öz hüquqlarını ya bilmirlər, ya da çox az bilirlər.** Buna görə də müəyyən addımlar atmaqdan çəkinirlər. İkinci problem isə ondan ibarətdir ki, vətəndaşlar hüquqlarını bilsələr də, onlardan sui-istifadə edirlər. Hər iki hal cəmiyyətdə ciddi problemlərə səbəb olur. Birinci halda vətəndaş hüquqlarını bilmədiyi üçün özünə problem yaradır, ikinci halda isə hüquqlarından sui-istifadə etməklə digər vətəndaşlara zərər vurur". - deyə ekspert qeyd edib.

Onun sözlərinə görə, beynəlxalq təcrübə göstərir ki, hüquq mədəniyyəti formalaşmış cəmiyyətlərdə hüquq-mühafizə orqanlarının fəaliyyətinə və ya qanunların tez-tez dəyişdirilməsinə, eləcə də çoxsaylı yeni qanunların hazırlanmasına ehtiyac qalmır. O bildirib ki, insanların hüquqi savadlılığı yüksək olduqda, dövlətin də müəyyən mənada yükü azalır. Məsələn, Skandinaviya və bəzi Avropa ölkələrində hüquqi savadlılıq və hüquq mədəniyyəti o qədər yüksəkdir ki, hüquq-mühafizə orqanlarının vətəndaşlara nəzarət etməsinə ehtiyac qalmır.

Ruslan Vəliyev deyib ki, belə cəmiyyətlərdə vətəndaş öz hüquqlarını və başqalarının hüquqlarını bilir, onlara hörmətlə yanaşır və heç kimin hüquqlarını pozmur.

"Bu halda insanlar arasında narazılıq yaranmır və hüquq-mühafizə orqanlarına müraciət etməyə ehtiyac olmur. İnsanlar öz hüquq düşüncəsi və mədəniyyəti ilə hərəkət etdikləri üçün cəmiyyətdə qarşılıqlı razılıq və harmoniya hökm sürür". - deyə hüquqşünas əlavə edib. Ekspertin fikrincə, hüquqi savadsızlığın hökm sürdüyü cəmiyyətlərdə isə tez-tez konfliktlər baş verir və nəticədə neqativ hallar ortaya çıxır. Onun sözlərinə görə, bu baxımdan Azərbaycan həmin ölkələrin təcrübəsini öyrənməli və hüquqi maarifləndirmə istiqamətində yeni addımlar atmalıdır. "Ən vacib məsələ hüquqi savadlılığın artırılması yollarıdır. Bu, maarifləndirmə vasitəsilə də mümkündür, vaxtilə tətbiq edilən ciddi cəzalar nəticəsində də. Lakin ciddi cəza hər zaman arzu olunan nəticə vermir" - deyə o, vurğulayıb.

Ruslan Vəliyev tarixi nümunəyə də toxunaraq qeyd edib ki, Roma hüququ tarixində belə hallar olub: "Oğurluğa görə insanı meydanın ortasında asırdılar, amma həmin günlərdə oğurluğun sayı birə-beş artırdı. İnsanlar edamı izləməyə toplaşır, lakin orada da oğurluq edirdilər. Bu fakt göstərir ki, sərt cəzalar bəzən effektiv olmaya bilər".

Ekspertin qənaətincə, düzgün maarifləndirmə və kompleks yanaşma hüquq mədəniyyətinin inkişafına və hüquqi savadlılığın yüksəlməsinə müsbət təsir göstərir. O deyib ki, bu zaman həm cəmiyyət sağlam olur, həm də yeni nəsil daha məsuliyyətli formalaşır. Ruslan Vəliyev sonda vurğulayıb ki, Azərbaycanda da müəyyən mənada hüquq mədəniyyəti formalaşıb. "Məsələn, bəzi Avropa ölkələrindən Azərbaycana gələn insanlar qeyd edirlər ki, ölkəmiz olduqca təhlükəsizdir. Günün istənilən saatında küçələrdə sərbəst gəzmək mümkündür. Bu, bir tərəfdən dövlət qurumlarının hüquq pozuntularına qarşı vaxtında və düzgün reaksiya verməsindən irəli gəlir, digər tərəfdən isə insanların anlayışlı davranaraq bu cür qaydalı həyat tərzinin daha rahat və uyğun olduğunu dərk etməsindən irəli gəlir".

**✍ Sevinc**

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*